Şövkət Abuzər qızı YUSUFOVA
i.f.d., dos. Azərbaycan Kooperasiya Universiteti
e-mail: sovket.yusifova@mail.ru
https://doi.org/10.30546/4.71.73001.2024.02.044

AQRAR SAHİBKARLIĞIN İNKİŞAFINDA YAŞIL İQTİSADİYYATIN ROLU

Xülasə

Tədqiqatın məqsədi - Azərbaycanda aqrar sahədə sahibkarlığın inkişafında yaşıl iqtisadiyyatın əhəmiyyətinin və onun əsas istiqamətlərinin işlənib hazırlanması və həyata keçirilməsinin təmin edilmə səviyyəsinin araşdırılmasından ibarətdir.

İşin metodologiyasını aqrar sahədə yaşıl iqtisadiyyatın inkişafının kənd təsərrüfatı sahibkarlığının inkişafına təsiri və bu sahədə mövcud olan problemlərin aradan qaldırılması və onun dayanıqlı inkişafının təmin olunması yolları təşkil edir.

Tədqiqatın tətbiqi əhəmiyyəti ondan ibarətdir ki, aqrar sahibkarlığın inkişafında yaşıl iqtisadiyyatın rolu sürətlənir və ölkə əhalisinin həyat səviyyəsinin yaxşılaşmasına təsir edir.

Tədqiqatın nəticələri - Azərbaycanda “yaşıl” iqtisadiyyatın mövcud vəziyyətinin tədqiq edilməsi və onun aqrar sahibkarlığa təsiri istiqamətləri müəyyən edilmiş müvafiq qərarların qəbul edilməsi üçün təkliflər verir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi “yaşıl” iqtisadiyyatlı aqrar sahibkarlığın inkişaf strategiyasının öyrənilməsi və kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən sahibkarlıq təsərrüfatının inkişaf xüsusiyyətlərinin aşkar edilməsindən ibarətdir.

Açar sözlər: sahibkarlığın inkişafı, aqrar sahə, yaşıl iqtisadiyyat, kənd təsərrüfatı, gəlirlərin artırılması.

Giriş

Son illərdə “yaşıl” iqtisadiyyatın inkişafı ilə bağlı aparılan araşdırmalara görə “yaşıl” iqtisadiyyat təbii ehtiyatlardan davamlı istifadəyə, ətraf mühitin mühafizəsini təmin etməyə və istehsalın səmərəliliyinin artırılmasına yönəldiyi üçün kənd təsərrüfatı sahibkarlığının inkişafında mühüm rol oynayır. Yaşıl iqtisadiyyatın prinsiplərinin aqrar sahədə tətbiqi kənd təsərrüfatı sahibkarlığına müsbət təsir etməklə məhsul istehsalında ekoloji cəhətdən təmiz texnologiyaların tətbiqini və istilik effekti yaradan qaz emissiyalarının atmosferə atılmasının qarşısını almağı özündə əks etdirir. Burada ekoloji təmiz əkinçiliyin genişlənməsi, kimyəvi gübrələrin və pestisidlərin istifadəsinin azaldılması, enerjiyə qənaət edən bitki və heyvandarlıq sistemlərinin tətbiqi istehsal xərclərinin azaldılmasında və məhsulun rəqabət qabiliyyətinin artmasında mühüm rol oynamaqla aqrar sahibkarlığın inkişafını stimullaşdırır.

Hazırda dünya ölkələrini narahat edən əsas məsələlərdən biri iqlim dəyişikliyidir. Məlum olduğu kimi aqrar sahənin inkişafı və kənd təsərrüfatı məhsulları istehsalının artması və davamlılığı təbii iqlim şəraiti ilə əlaqədardır. Son 20 ildə istehsal texnologiyası ilə bağlı dəyişikliklər, bərpa olunan enerji mənbələrindən istifadənin genişlənməsi Aİ-də resurs səmərəliliyinin artırılmasında əsas amil olmuşdur. Qeyd edək ki, inkişaf etmiş ölkələrdə iqtisadiyyat sahəsində istilik effekti yaradan qaz emissiyalarının atmosferə atılmasında ilk yerdə energetika və sənaye sahələri, üçüncü yerdə kənd təsərrüfatı sahəsi gəlir. Azərbaycanda isə kənd təsərrüfatı ikinci yerdə gəlir.

Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatlarına görə 2021-ci ildə istilik effekti yaradan qazların atılmasında energetika sahəi 81.1%, kənd təsərrüfatı isə 11.5% paya malik olublar. Aqrar sahədə atmosferə istilik effekti yaradan qaz emissiyalarının artırılmasında əsasən istixana və heyvandarlıq, xüsusən də maldarlıq sahəsi aktiv rol oynayır.

Aqrar sahədə yaşıl iqtisadiyyat prinsiplərinə uyğunluğun mövcud vəziyyəti

Ümummilli lider H. Əliyev tərəfindən 8 iyun 1999-cu il tarixdə təsdiq edilmiş “Ətraf mühitin mühafizəsi haqqında” 678-IQ №-li Azərbaycan Respublikasının Qanunu [1], Azərbaycan

Respublikası Prezidenti İ. H. Əliyevin 13 iyun 2008-ci il tarixli Sərəncamı ilə "Ekoloji təmiz kənd təsərrüfatı haqqında" Azərbaycan Respublikasının Qanununun [2] qəbul edilməsi ölkədə ətraf mühitin qorunmasına və ekoloji təmiz məhsul istehsalına üstünlük verildiyini göstərir. Dünyada baş verən qlobal iqlim dəyişikliyinin artması bu sahəhə diqqəti daha da artırmışdır. Məhz bu baxımdan, Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2021-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də Azərbaycanın təmiz ətraf mühit və "yaşıl" ölkəsi kimi formalaşması bir hədəf olaraq müəyyən edilmişdir [3]. Bütün bunlar Azərbaycanda yaşıl iqtisadiyyata və ekoloji mühitin qorunmasına xüsusi önəm verildiyini göstərir. Onu da qeyd edək ki, iqlim dəyişikliyi ilə əlaqədar olaraq 2024-cü ildə GOP29 kimi beynəlxalq bir tədbirin keçirilməsinə Azərbaycan ev sahibliyi edərək beynəlxalq ekoloji problemlərin müzakirə edildiyi bir məkana çevrilir.

Azərbaycanda aqrar sahə məhsulları istehsalında, xüsusən də tərəvəz məhsulları istehsalında istixanaların inkişafının mühüm sosial-iqtisadi əhəmiyyəti vardır. Bu, eyni zamanda aqrar sahibkarlığın inkişafında, aqrar sahəyə investisiya qoyuluşunda da mühüm rol oynayır. İstixanalarda istehsal olunan məhsullar ilboyu əhalinin ərzaq məhsullarına olan tələbatını ödəməklə bərabər, qış mövsümündə yüksək qiymətlərlə ixracına da imkan verir. Lakin, ənənəvi istxanalar gətirdiyi gəlirdən daha çox zərər verirlər ki, bu da qlobal iqlim dəyişikliyinin sürətlənməsinə müsbət təsir edir. İstixana qazlarının emissiyalarının azaldılması iqlim dəyişikliyi ilə mübarizə kontekstində mühüm amillərdən biri hesab olunur. İstixana qazlarının azalmasında mühüm amillərdən biri bərpa olunan enerji mənbələrindən istifadənin genişlənməsidir. Azərbaycanda istixanaların qızdırılması üçün tullantı maşın yağlarından ucuz başa gəldiyi üçün istifadə genişlənmişdir.

Son illərdə ətraf mühitin mühfizəsi ilə bağlı görülən tədbirlər bu kimi halların azalmasına səbəb olsa da sahibkarlar arasında ənənəvi üsullardan istifadə edənlər də var. Bərpa olunan enerji mənbələrinə keçid atmosferə atılan istixana qazı emissiyalarını azaltmağa imkan verir. Eyni zamanda, istixanada davamlı və sabit istiliyin verilməsini təmin edir ki, bu da məhsul itkisinin qarşısını alır və xəstəliklərin azalmasına səbəb olur.

Aqrar sahədə su ehtiyatlarından səmərəli istifadə edilməsi də qarşıda duran mühüm vəzifələrdən biri hesab olunur. Su olmadan məhsul istehsalı mümkün deyil və suyun həyat olması da boş yerə deyilməyib. Baş verən qlobal iqlim dəyişiklikləri su ehtiyatlarının sürətlə azalmasına səbəb olur və bu, aqrar sahənin inkişafının və məhsul istehsalının ciddi bir təhlükəli təbiət hadisəsi ilə üzləşməsi deməkdir.

Tərəfimizdən 2023-cü ildə aparılan tədqiqat zamanı qeyd etmişdik ki, "*bazar iqtisadiyyatı şəraitində mövcud olan çətinliklər, məhsul istehsalında və satışında yaranan çətinliklər və quraqlıq səbəbindən bəzi iqtisadi rayonlarda əkin sahələrinin kəskin azalması, maddi-texniki təchizat sahəsindəki problemlər, istehsal resurslarının qiymətlərinin kəskin şəkildə artması təsərrüfatlara geniş təkrar istehsalı həyata keçirməyə kifayət qədər vəsait yönəltməyə imkan vermir" [7. Səh 63].* Su ehtiyatlarının azalması əkin sahələrinin və məhsuldarlığın kəskin azalmasına, məhsulların keyfiyyətinin aşağı düşməsinə səbəb olur ki, bu da aqrar sahibkarlığın inkişafında ciddi maneə kimi qəbul edilə bilər.

Kənd təsərrüfatında ikinci mühüm ekoloji təmiz əkinçilik sisteminin inkişafı, daha az sintetik kimyəvi gübrə və pestisidlərdən istifadənin azaldılması, daha səmərəli suvarma sistemlərinin tətbiqi və qoruyucu meşə zolaqlarının salınması, çoxillik əkmələrin salınmasında güclü küləklərin əsmə istiqamətinə uyğunluğun təmin edilməsi və ümumilikdə əkinçilik sisteminin düzgün idarə edilməsi kimi məsələlər, davamlı əkinçilik təcrübələrinin yeni texnologiyalar əsasında qəbul edilməsi emissiyaların azaldılmasında, torpaqların münbitliyinin qorunmasında və su ehtiyatlarına qənaət edilməsində mühüm rol oynayır. Onu da qeyd edək ki, torpaqların münbitliyinin qorunmasında və kənd təsərrüfatında məhsuldarlığın artmasının təmin edilməsində mineral və üzvi gübrələrin verilməsi mütləqdir. Lakin hazırkı texnologiyalar sintetik kimyəvi gübrələrin əvəzediciləri ilə bitkiləri qidalandırmağa və torpağın münbitliyini yaxşılaşdırmağa kömək edən müxtəlif üzvi və təbii maddələrin olduğunu göstərir. Bura daxildir:

- üzvi gübrələr;
- biostimulyatorlar;
- mikroorqanizmlər və bioloji maddələr;
- yaşıl peyin;
- təbii mineral gübrələr və s.

Bu əvəzedicilər xüsusi bitki ehtiyaclarından və torpaq şəraitindən asılı olaraq tək və ya ənənəvi sintetik gübrələrlə birlikdə istifadə edilə bilər. Üzvi və təbii əvəzedicilərdən istifadə daha davamlı və ekoloji cəhətdən təmiz əkinçiliyi təşviq edir. Azərbaycanda əkinlərə mineral gübrələrin 100 % qidalı maddə hesabı ilə verilməsi dinamikası cədvəl 1-də göstərilmişdir.

Cədvəl 1.

Kənd təsərrüfatında əkinlərə mineral gübrələrin verilməsi, 100 % qidalı maddə hesabı ilə

İllər	Cəmi, min ton	hər hektar əkinə, kq	ondan								Gübrələnmiş sahənin ümumi əkində xüsusi çəkisi, %
			taxıla*	**Pambığa**	**tütünə**	**kartofa**	**tərəvəz və bostana**	**yem bitkilərinə**	**bağlara**	**üzümlüklərə**	
2018	141.3	72	86	84	141	81	91	35	63	40	84
2019	159.3	82	89	127	131	81	96	26	64	51	80
2020	151.6	81	88	131	137	87	98	29	73	54	79
2021	88.0	47	66	70	67	49	27	9	40	18	66
2022	121.8	65	78	114	145	46	72	11	66	36	72

Mənbə: Cədvəl Dövlət Statistika Komitəsinin, stat.gov.az

Cədvəldə verilən məlumatların təhlili göstərir ki, torpaqların münbitliyinin qorunması üçün kimyəvi müneral gübərlərlə təminat səviyyəsi aşağıdır və bu əsasən mineral gübrələrin qiymətlərinin baha olması ilə bağlıdır. İnkişaf etmiş ölkələrdə kimyəvi mineral gübrələrdən istifadə səviyyəsinin azaldılması tövsiyə olunur və bu əsasən ətraf mühitin flora və faunasının qorunması ilə izah olunur. Məsələn, ABŞ-da xalis sıfır iqtisadiyyata nail olmaq məqsədilə torpaqların potensialının artırılması üçün iqlim-ağıllı kənd təsərrüfatı təcrübələrinin çoxu torpağın sağlamlığını yaxşılaşdıran prinsiplərə əsaslanır. İqlim baxımından ağıllı təcrübələrin miqyaslı qəbulu torpağın karbon səviyyəsini bərpa edə, geniş ərazilərdə biomüxtəlifliyi və torpağın sağlamlığını artıra bilər; eroziyanı azaltmaq və suyun keyfiyyətini yaxşılaşdırmaq; təsərrüfat dayanıqlığını artırmaq; və ABŞ fermerləri və kəndliləri üçün xərclərə qənaət və yeni gəlir imkanları yaradılmasını tövsiyə edirlər [8. səh 11].

Son illərdə elektrik enrjisi ilə işləyən və ya hibrid maşınların sayı artmaqdadır. Bu kimi texnologiyaların kənd təsərrüfatında tətbiqi enerji istehlakını və buna görə də istixana qazı emissiyalarını azaltmağa imkan verir.

Aqrar sahədə qaz emissiyalarının atılmasında maldarlığın inkişafı da xüsusi rol oynayır. İnkişaf etmiş ölkələrdə bu məqsədlə ət istehlakının azaldılması, pəhrizə üstünlük verilməsi və əvəzləyici bitkiçilik məhsullarının istehlakı tövsiyə olunur. Lakin ölkəmizdə mövcud olan mental dəyərlər, milli mətbəximiz ət istehlakına üstünlük verir. Bu halda heyvandarlığın idarə edilməsinin təkmilləşdirilməsi və müasir heyvandarlıq komlekslərinin yeni texnologiyalarla inkişaf etdirilməsi və yemlənməsinin təkmilləşdirilməsi daha münasib görünür.

Aqrar sahibkarlığın inkişafına yaşıl iqtisadiyyatın təsirinin artırılması istiqamətləri

Azərbaycan kənd təsərrüfatının mövcud problemlərinin həll edilməsi ölkədə ərzaq təhlükəsizliyinə və ölkə iqtisadiyyatının sabitliyinə birbaşa təsir göstərir. Hazırda aqrar sahədə fəaliyyət göstərən təsərrüfatların əsas hissəsinin fəaliyyətinin səmərəlilik səviyyəsinin aşağı olması, təbii resursların (xüsusən də suvarma suyunun) qeyri-bərabər bölüşdürülməsi, istehsal texnologiyasının

müasir tələblərə və nailiyyətlərə cavab verməyən səviyyəsi, peşəkar kadrların çatışmazlığı kimi problemlərin həlli aqrar sahənin inkişafında mühüm rol oynayır. Son illərdə qlobal iqlim dəyişikliyinin artması bəzi bölgələrdə kənd təsərrüfatını ciddi problemlərlə üzləşdirir. Qeyd etmək lazımdır ki, kənd təsərrüfatında su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ərzaq təhlükəsizliyinin, davamlı inkişafın və ətraf mühitin mühafizəsinin təmin edilməsində mühüm rol oynayır. Bu məqsədlə ölkədə su ehtiyatlarının yaradılması mühüm şərtdir və bu məqsədlə ölkədə müvafiq işlər görülməkdədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev kənd təsərrüfatının suvarma suyu ilə təmin edilməsinin yaxşılaşdırılması üçün aprelin 16-da Hacıqabul rayonunda yenidən qurulacaq Şirvan suvarma kanalının təməlini qoyub. Ölkənin digər regionlarında da bu istiqamətdə işlər görülməkdədir. Su ehtiyatlarından səmərəli istifadə edilməsi üçün müasir suvarma sistemlərinin tətbiqi genişləndirilməli və sahibkarlar bu istiqamətdə maarifləndirilməlidir. Odur ki, su ehtiyatlarından səmərəli istifadə texnoloji, təşkilati, maarifləndirici və qanunvericilik tədbirlərini əhatə edən kompleks yanaşma tələb edir.

İkinci mühüm məsələ torpaqların münbitliyinin təmin edilməsidir. İqtisadçı alim E.Ə. Quliyev öz tədqiqatlarında göstərir ki, "*Azərbaycanın su ehtiyatlarının məhdud olması, ciddi iqlim dəyişilikləri fonunda kənd təsərrüfatı torpaqlarının artan deqradasiyası kontekstində ərzaq tələbatının artımını ödəmək üçün həlli vacib olan aktuallıqlar bunlardır. Ərzaq və qida məhsullarının qıtlığını aradan qaldırmaq, ərzaq təhlükəsizliyi və qidalanmaya zəmanət vermək ehtiyacı fonunda, davamlı torpaq idarəçiliyi təcrübələrinin öyrənilməsi və həyata keçirilməsi demək olar ki, indiki qədər həlli vacib olan məsələlər olmamışdır. Odur ki, torpaq ehtiyatlarından səmərəli istifadə edilməsi üçün ilk növbədə davamlı torpaq idarəçiliyi təcrübələrinin həyata keçirilməsi əsas məsələlərdən biri hesab olunur*" [5. Səh 64.].

İqtisadçı alim A.H. Vəliyev isə öz tədqiqatlarında göstərir ki, "*Aqrar sahədə tətbiq edilən yeni texniki vasitələrin əkin yerlərinə təsirinin iqtisadi və sosial-ekoloji qiymətləndirilməsi prosesində torpağın ağır texnika tərəfindən bərkidilməsi dərəcəsini, eyni vaxtda bir neçə əməliyyatın icra edilməsi imkanlarını, maşın və qurğuları idarə edənlərin iş şəraitini, sahəyə qonşu olan ərazilərin flora və faunaya təsirini, humus qatından istifadə səmərəliliyini nəzərə almalı və onları xarakterizə edən müvafiq göstəricilər müəyyənləşdirilməlidir*" [6. Səh 368].

Qeyd edək ki, torpaqlardan kənd təsərrüfatı üçün istifadədən öncə onun qiymətləndirilməsi və istifadə ediləcək texnika və texnologiyaların müəyyən edilməsi torpaq ehtiyatlarından optimal istifadəyə imkan verir. Belə ki, qiymətləndirmə iqlim dəyişikliyinə uyğun olaraq hansı torpaq sahələrinin hansı əkin və ya heyvandarlıq növləri üçün uyğun olduğunu müəyyən etməyə kömək edir. Bu, torpaqdan daha səmərəli istifadə etməyə imkan verir və məhsuldarlığı artırır. Odur ki, torpaqlardan səmərəli istifadə edilməsi, iqtisadçı alimlərin də qeyd etdiyi kimi, ilk növbədə onun düzgün idarə edilməsindən asılıdır. Bu həm də ekoloji təmiz məhsul istehsalına imkan verir. Bu sahədə sahibkarların maarifləndirilməsinə ehtiyac vardır.

İqtisadçı alim professor İ.H İbrahimov qeyd edir ki, "*aqrar sahədə kimyalaşdırma torpağın və məhsulların nitratlar və pestisidlər qalığının miqdarına nəzarət etməyə istiqamətlənməlidir. Odur ki, kənd təsərrüfatında sahibkarların istifadə etdikləri mineral və üzvi gübrələr, pestisidlər barədə onlara məsləhət verilməli, həmin maddələrlə ətraf mühitin çirkləndirilməsinin qarşısının alınması, torpağın qida maddələri ilə təmin olunmasında gübrələrin rolu, xəstəlik və zərərvericilərlə mübarizə tədbirlərindən istifadə olunmasında elmi təcrübi biliklərin yayılması böyük əhəmiyyətə malikdir*" [4. Səh 290].

Qeyd edək ki, kənd təsərrüfatı sahibkarlarının mineral və üzvi gübrələr, eləcə də pestisidlər haqqında məlumatlandırılması ətraf mühitin çirklənməsinin qarşısının alınmasında, torpağın qida maddələri ilə təmin olunmasında xüsusi əhəmiyyət kəsb edir. Sahibkarların marifləndirilməsi və onlara ekoloji mühitin qorunması üçün alternativ vasitələrdən istifadənin öyrədilməsi aqrar sahədə kimyəvi gübrə və pestisidlərdən əlavə, bioloji maddələrin istifadəsi, üzvi tullantıların kompostlanması və zərərvericilərə qarşı inteqrasiya olunmuş sistemlərin istifadəsini aktuallaşdırır.

Nəticə

Bu gün dünyada “yaşıl iqtisadiyyat”ın genişlənməsi iqtisadiyyatın bütün sahələrində olduğu kimi aqrar sahədə də ekoloji cəhətdən təmiz texnologiyaların tətbiqini, ətraf mühitin zərərli tullantılardan təmizlənməsi üsullarının və idarə edilməsinin istifadəsini şərtləndirir. Eyni zamanda aqrar sahədə bərpa olunan enerji mənbələrindən istifadə aqrar sahədə ekoloji əkinçiliyə keçidin təmin edilməsi, istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsi və kənd əhalisinin yaşayış şəraitinin yaxşılaşdırılmasına imkan verər.

ƏDƏBİYYAT

1. Ümummilli lider H. Əliyev tərəfindən 8 iyun 1999-cu il tarixdə təsdiq edilmiş “Ətraf mühitin mühafizəsi haqqında” 678-IQ №-li Azərbaycan Respublikasının Qanunu
2. Azərbaycan Respublikası Prezidentinin 13 iyun 2008-ci il tarixli Sərəncamı ilə “Ekoloji təmiz kənd təsərrüfatı haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. https://e-qanun.az/framework/15321
3. Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2021-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş, Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər, https://president.az/az/articles/view/50474
4. İbrahimov İ.H., Aqrar sahənin iqtisadiyyatı, Monoqrafiya, Bakı-2016, 655 s.
5. Quliyev E.Ə., “Kənd təsərrüfatının dayanıqlı inkişafının təmin edilməsində torpaq münbitliyinin rolu” “Ümumdünya Torpaq Günü: Dayanıqlı Kənd Təsərrüfatında Torpaq Amili” mövzusunda Respublika elmi-praktik konfransın materialları., Gəncə-2023. 394 s.
6. Vəliyev A.H., Torpaqlardan səmərəli istifadənin və torpaq münasibətlərinin tənzimlənməsinin hüquqi-iqtisadi aspektləri., Bakı, “AVROPA” nəşriyyatı-2019, -386 s.
7. Yusufova Ş.A., Aqrar sahibkarlığın inkişafına dövlət dəstəyi və maliyyələşdirmə mexanizmi., (Dərs vəsaiti), “Kooperasiya” nəşriyyatı, Bakı-2023.,264 s.
8. Transformative Investment in Climate-Smart Agriculture Unlocking the potential of our soils to help the U.S. achieve a net-zero economy, 2021. 104 s.
9. https://www.stat.gov.az/source/agriculture/

Шовкат Абузар кызы Юсуфова
Доцент Азербайджанский Университет Кооперации
электронная почта: sovket.yusifova@mail.ru

Роль зеленой экономики в развитии сельскохозяйственного предпринимательства

Резюме

Цель исследования. Основная цель исследования - изучить значение зеленой экономики в развитии предпринимательства в аграрном секторе Азербайджана и уровень обеспечения развития и реализации ее основных направлений.

Методологию работы составляют влияние развития зеленой экономики в аграрной сфере на развитие сельскохозяйственного предпринимательства и пути устранения существующих проблем в этой сфере и обеспечения ее устойчивого развития.

Прикладная значимость исследования заключается в том, что роль зеленой экономики в развитии аграрного предпринимательства ускоряется и влияет на повышение уровня жизни населения страны.

Результаты исследования. Исследование современного состояния «зеленой» экономики в Азербайджане и ее влияния на аграрное предпринимательство призвано внести предложения для принятия соответствующих решений.

Оригинальность и научная новизна исследования заключается в изучении стратегии развития аграрного предпринимательства с «зеленой» экономикой и раскрытии особеннос-

тей развития предпринимательского фермерского хозяйства, действующего в сфере сельского хозяйства.

Ключевые слова: развитие предпринимательства, аграрная сфера, зеленая экономика, сельское хозяйство, рост доходов.

Shavkat Abuzar Yusufova
PhD. in economic sciences, associate prof.
Azerbaijan Cooperation University
e-mail: sovket.yusifova@mail.ru

The role of green economics in agricultural entrepreneurship development

Research Objective: The main objective of the research is to investigate the importance of green economics in the development of entrepreneurship in the agricultural sector in Azerbaijan, and to ensure the identification and implementation of its key directions.

Methodology: The methodology of the study involves examining the impact of green economics on the development of rural entrepreneurship in the agricultural sector, and devising ways to address existing problems and ensure its sustainable development.

Significance of the research application: The importance of the research lies in expediting the role of green economics in the development of agricultural entrepreneurship, which contributes to the improvement of the quality of life of the country's population.

Research Results: The research aims to investigate the current state of "green" economics in Azerbaijan and its impact on agricultural entrepreneurship, providing proposals for relevant decisions to be made.

Originality and scientific novelty: The originality of the research lies in studying the development strategy of agricultural entrepreneurship with "green" economics and identifying the peculiarities of entrepreneurial activity in the rural sector.

Keywords: entrepreneurship development, agricultural sector, green economics, rural entrepreneurship, income enhancement.